# Kənd sakinlərinin müraciətləri dinlənilib

## Tövlə kəndi

***Prezident cənab İlham Əliyevin əhalinin problemlərinin yerində öyrənilməsi, həll edilməsi, vətəndaş-məmur münasibətlərində şəffaflığın təmin edilməsi barədə tapşırıqları Qəbələ rayonunda daim diqqət mərkəzində saxlanılır. Ölkə başçısının "Xalqla dövlət məmuru hər zaman bir yerdə olmalıdır" sözlərinə uyğun olaraq Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev mütəmadi olaraq vətəndaşlarla görüşərək onların problemlərini dinləyir, təklif və qayğıları ilə maraqlanır, həlli istiqamətində müvafiq tədbirlər görür.***





Yerlərdə vətəndaşlarla qəbulların keçirilməsinə üstünlük verən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev sakinlərin problemlərini, təklif və istəklərini dinləmək üçün noyabrın 1-də Tövlə kəndində səyyar görüş-qəbul keçirib. Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti xidmət təşkilstlarının rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Səbuhi Abdullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində rayonumuzda sosial-iqtisadi sahədə görülən işlər barədə sakinlərə məlumat verib. RİH başçısı bildirib ki, Qəbələdə çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin tikilərək istifadəyə verilməsi, yeni yolların çəkilməsi rayonumuzun hərtərəfli inkişafı üçün möhkəm əsas yaradır. Səbuhi Abdullayev qeyd edib ki, hər bir qəbələli qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalı, xüsusilə strateji əhəmiyyətə malik kənd təsərrüfatı sahələrinin, o cümlədən baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişafına diqqət artırılmalıdır. O, diqqətə çatdırıb ki, vətəndaşlar daimi olaraq bütün fəaliyyətləri istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə torpaqlardan təyinatı üzrə istifadə edilməsi, tikinti işlərinin aparılması və enerji resurslarından istifadədə məsələlərində diqqətli olmalıdırlar.

Daha sonra rayon icra hakimiyyətinin başçısı kəndin həlli vacib problemlərindən danışıb və onların həlli yolları barədə öz mülahizələrini sakinlərlə bölüşüb.

Qəbuldan razı qalan vətəndaşlar RİH başçısı ilə görüş zamanı kənd yolunun asfaltlaşdırılmasını, əraziyə qaz xəttinin çəkilməsini, elektrik xətlərinin təmirinin başa çatdırılmasını xahiş ediblər.

Səbuhi Abdullayev qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə tapşırıqlarını verib.

## Dizaxlı kəndi

Noyabrın 6-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Dizaxlı kəndində vətəndaşlarla görüşmüşdür. Qəbulda rayonun aidiyyəti idarə və müəssisələrin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.



Görüşü giriş sözü ilə açan Səbuhi Abdullayev sosial-iqtisadi sahədə həyata keçirilən layihələrin nəticəsində bütün sahələrdə əsaslı dönüş yarandığını, ölkəmizdə əhalinin maddi rifahının yaxşılaşdırılması istiqamətində müntəzəm olaraq zəruri addımların atıldığını bildirmiş, rayonumuzda yeni məktəb binalarının tikildiyini, parkların salındığını, yolların asfaltlaşdırıldığını, qaz xətlərinin çəkildiyini, elektrik təsərrüfatında təmir işlərinin aparıldığını və digər abadlıq işlərinin görüldüyünü diqqətə çatdırmışdır. Natiq bütün bunların ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin səmərəli fəaliyyətinin nəticəsi olduğunu qeyd etmişdir.

RİH başçısı son dövrdə respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda, o cümlədən Dizaxlı kəndində aparılan quruculuq işlərindən də danışmış, ərazini rayon mərkəzi ilə birləşdirən Mirzəbəyli–Çuxur Qəbələ–Dizaxlı–Çarxana avtomobil yollunun asfaltlaşdırıldığını, kənd məktəbi, icra nümayəndəliyi üçün yeni müasir tipli binaların tikilərək istifadəyə verildiyini və bütün bunların hamısının ürəkaçan olduğunu vurğulamışdır.



Qəbələdə aqrar sektorun genişləndirilməsi və inkişafı üçün münbit şəraitin olduğunu deyən RİH başçısı strateji əhəmiyyətə malik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına əhalinin diqqətinin daha da gücləndirilməsinin vacibliyini bildirmişdir.

Görüş-qəbulda iştirak edən kənd sakinləri rayonumuzda aparılan geniş abadlıq və quruculuq işlərinə göstərdiyi qayğıya görə Prezident İlham Əliyevə razılıqlarını ifadə etmiş, ölkə başçısının qəbələlilərə bəslədiyi münasibəti və diqqəti yüksək qiymətləndirmişlər.

Çıxış edənlər həmçinin kənddə işıq dirəklərinin dəyişdirilməsi və yeni transformatorun quraşdırılması, Dizaxlı-Sarıhacılı yolunun asfaltlaşdırılması, yaşayış məntəqəsinin cənub hissəsinin suvarma suyu ilə təchiz edilməsi və inzibati ərazinin tərkibində olan Sarıhacılı kəndinə qaz xəttinin çəkilməsi barədə təkliflər irəli sürmüşlər.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev kənd sakinləri ilə keçirilən səmimi və işgüzar görüşdən məmnunluq duyduğunu bildirmiş, qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyati təşkilatların rəhbərlərinə konkret tapşırıqlar vermişdir.

**"Qəbələ"**
**İlkin VƏLİZADƏ (foto).**

## Ləki-Qəbələ dəmiryolunda tikinti işləri uğurla davam edir

Son vaxtlar Azərbaycanda turizmin inkişafı istiqamətində uğurlu layihələr həyata keçirilir. Bölgələrdə bununla bağlı yeni infrastrukturlar yaradılır, müasir turizm obyektləri tikilir, turist axınının gediş-gəlişini asanlaşdırmaq üçün asfalt yollar salınır, yeni dəmiryolu xətləri çəkilir. Yeni çəkilən yollardan biri də Ləki-Qəbələ dəmiryoludur.

Bakı-Böyükkəsik dəmiryolu qovşağının Ləki stansiyasından Qəbələ istiqamətinə çəkilən 43 kilometrlik birxətli yolda tikinti işləri sürətlə davam edir.

Layihəyə əsasən dəmir yolu boyunca 75 ədəd suötürücü qurğunun quraşdırılması, 14 tunel və körpünün salınması nəzərdə tutulub. Yolun Ağdaş rayonu ərazisindən keçən 15-ci kilometrində stansiya, Qəbələ Beynəxalq Hava Limanı yaxınlığında isə dəmiryolu vağzalının tikilməsi planlaşdırılıb.

Hazırda dəmiryolu xəttinin 14-cü kilometrində 27 p/metrlik körpünün inşası və Qəbələ rayonunun dağlıq ərazisindən keçən 20 kilometrlik hissəsində yolun əsasının hazırlanması işləri aparılır.

## "Uşaq hüquqlarının təşviqi" layihəsinə start verilib

"ASAN Könüllüləri" Təşkilatının və BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı ilə "Uşaq hüquqlarının təşviqi" layihəsinin icrasına başlanılıb.

Təşkilatdan AZƏRTAC-a bildiriblər ki, layihənin məqsədi ölkəmizdə uşaq hüquqlarının qorunması və təbliği, o cümlədən bu istiqamətdə peşəkar təlimçi qruplarının formalaşdırılması, paytaxtda və regionlarda əhalinin maariflendirilməsidir.

Layihə çərçivəsində ekspertlər tərəfindən təlimçilər üçün təlim proqramı (TOT), maarifləndirici sessiyalar və uşaq hüquqlarının təşviqi günləri keçiriləcək. Maarifləndirmə tədbirinin digər bölgələrlə yanaşı Qəbələ rayonunda da keçirilməsi nəzərdə tutulur.